Ümumi məlumat	Fənnin adı, kodu və kreditlərin sayı	**ART 210 Painting-2, 3KU(6 ECTS)**
	Departament	**Memarlıq və Dizayn**
	Proqram (bakalavr, magistr)	Bakalavr
	Tədris semestri	2023/24-cü tədris ilinin yaz semestri
	Fənni tədris edən müəllim (lər)	Nigar Əliyeva
	E-mail:	naliyeva@khazar.org
	Telefon:	+994517971117
	Mühazirə otağı/Cədvəl	Neftçilər filialı 315-ci otaq
	Məsləhət saatları	
Prerekvizitlər	Rengkarlıq 2	
Tədris dili	Azərbaycan	
Fənnin növü (məcburi, seçmə)	Məcburi	
Dərsliklər və əlavə ədəbiyyat	**Əsas dərsliklər:** 1. Johannes İtten "Rəng elementləri" Tehran-2003 2. Ekkehardt Hofmann "Suluboya dərsləri" Moscow-2022 3. John Canaday " Metropoliten muzeyinin rəssamlıq seminarları" USA-1960 4. Hanry Sternberg "Kompozisiya" Tehran-1995 5. İnternet resursları	
Kursun təsviri	Gələcək müəllim kimi fəaliyyət göstərən tələbələrə peşəkar bilik və bacarıqlar vermək, onun rəngkarlıq sahəsində yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək, nəzəri olaraq rəssamlıq sənətinin əsaslarını öyrətmək, müxtəlif dövrlərin rəssamları və onların yaratdığı səbklərlə tanış olmaq və müstəqil yaradıcılığa hazırlamaqdır. Rəngkarlıq fənninin öyrədilməsi, tələbəyə, həm ətrafında gördüklərini, həm də xəyal etdiyi mövzuların təsvirə çəkmək bacarıqlarını inkişaf etdirir.	
Kursun məqsədləri	Kursun əsas məqsədi "Təsviri incəsənət müəllimliyi" ixtisasında təhsil alan tələbələri müəllim kimi yetişdirməkdir. Bu məqsədə əsasən, tələbələrə rəssamlıq dərslərini təcrübi şəkildə öyrətməkdən başqa, nəzəri biliklər də verilir. Belə ki, dərs əsnasında müəllim tərəfindən mövzuya aid müxtəlif nümunələr göstərilir və tələbələrlərə birlikdə təhlil edilir. Nəticədə tələbələrin həm yaradıcılıq qabiliyyəti inkişaf edir, həm də nəzəri biliyin artması, onların müəllim kimi fəalliyyət göstərməklərində önəmli rol oynayır.	
Tədrisin (öyrənmənin) nəticələri	**Fənnin ümumi tədrisi prosesində tələbələr:** ● Təlim məqsədlərini həyata keçirmək üçün məqsədəuyğun üsul və formalardan istifadə etməyi bacaracaq. ● Rəngkarlığı praktik olaraq öyrənməklə təcrübələrini rəssamlığın müxtəlif şaxələrində işlədikdə tətbiq edə biləcəklər. ● Azərbaycanda ümumtəhsil məktəblərində müəllim kimi işləmək üçün bu fənnin nəzəri və praktik tərəfini öyrənəcək ; ● İcra etdiyi layihələrə daha da yaradıcı və müasir tələblərə uyğun yanaşa biləcək ; ● Təlim məqsədlərini həyata keçirmək üçün məqsədəuyğun üsul və formalardan istifadə etməyi bacaracaq;	

Tədris metodları	Mühazirə		
	Qrup müzakirəsi	x	
	Praktiki tapşırıqlar	x	
	Praktiki məsələnin təhlili	x	
	Digər		
Qiymətləndirmə	**Komponentləri**	**Tarix/son müddət**	**Faiz (%)**
	Tapşırıq 1		20bal
	Tapşırıq 2		20 bal
	Davamiyyət		5 bal
	Aralıq imtahanı		25 bal
	Final imtahanı		30 bal
	Yekun		100 bal

Qaydalar (Tədris siyasəti və davranış)

Tapşırıq

Semestr ərzində verilən tapşırıqlara imtahan günlərində baxılacaq. Aralıq imtahanına qədər işlənilən tapşırıq üçün 20 bal və aralıq imtahanından sonra final imtahanına qədər olan tapşırıq üçün 20 bal nəzərdə tutulub. Tapşırıqların qiymətləndirməyində rol oynayan əsas məqamlar, tələbənin işlədiyi tapşırığı nə dərəcədə yerinə yetirməsi, rəng həlli və kompozisiyanın düzgün qurmasıdır

Davamiyyət

Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Dərsə 10 dəqiqə gecikən tələbəyə qayib yazılır. Buna baxmayaraq, tələbə dərs saatına buraxılır. Hər 2 qayib üçün 1 bal çıxılır. Tələbələr müəyyən səbəblərdən (xəstəlik, ailə vəziyyəti və s.) dərslərin buraxılması haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır.

İmtahanlar

Aralıq imtahanı oktyabr ayında tədris olunan mövzular üzrə, final imtahanı isə noyabr və dekabr ayında tədris olunan mövzular əsasında keçiriləcəkdir. Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur.

Fənni bitirmək qaydası

Univesitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60 % və daha yuxarı hesab edilir. Kəsri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.

İmtahan qaydalarının pozuntuları

Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürmələr qadağandır. Bu qaydaya əməl etməyən tələbənin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymət ilə imtahandan kənarlaşdırılır.

Tələbənin davranış qaydaları

Dərs zamanı dərs prosesini pozmağa və ya qeyri-etik hərəkətlər etməyə, həmçinin tələbələrin icazəsiz müzakirələrinə və mobil telefondan istifadəsinə icazə verilmir.

Cədvəl (dəyişdirilə bilər)

Həftə	**Tarix**	**Fənnin mövzuları**	**Dərslik/Tapşırıqlar**

1.		Sillabusla tanışlıq Parça, əşya və həndəsi fiqurlardan istifadə edərək naturmortun qurulması Vertikal kompozisiya Ölçü: 35x50cm	1.səh.5-15 2.səh.3-11 3.səh. 2-10 5. İnternet resursları
2.		Tapşırığın davamı	1.səh. 16-19 2.səh. 12-20
3.		Tapşırığın davamı	
4.		kompozisiyanın rənglənməsi	2.səh.20-31 4.səh.5-16 5. İnternet resursları
5.		Tapşırığın davamı	
6.		Tapşırığın davamı	2.səh. 32-43 3.səh.10-24
7.		Tapşırığın yekunlaşdırılması	2.səh.44-53 4.səh.6-11
8.		Aralıq imtahanı	
9.		Yeni naturmortun horizontal şəkildə qurulması Horizontal kompozisiya Ölçü: 35x50cm	1.səh. 19-31 2.səh. 54-65 4.səh.11-21 5.internet resursları
10.		Tapşırığın davamı	3.səh. 25-36 5.internet resursları
11.		Tapşırığın davamı	
12.		kompozisiyanın rənglənməsi	2.səh. 66-78 4.səh. 22-35
13.		Tapşırığın davamı	
14.		Tapşırığın davamı	3.səh. 37-51 5.internet resursları
15.		Tapşırığın yekunlaşdırılması	
Final imtahanı			